

# POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

6 avqust 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 29 (3792)


# Dostların müttəfiqliyi



## Bakı və Bişkek ortaq tarixi kökləri müttəfiqliklə gücləndirir

**Azərbaycan Prezidenti İlham Əliyev:**
*"Müttəfiqlik münasibətləri çox böyük məsuliyyət deməkdir və biz bu məsuliyyətə hazırıq."*

**Qırğızıstan Prezidenti Sadır Japarov:**
*"Bugünkü danışıqların mühüm yekunu müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması oldu. Bu tarixi hadisə Qırğızıstan Azərbaycan əməkdaşlığının yeni mərhələsinin əsasını qoyur."*

Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri iki ölkə arasında münasibətlərin yeni mərhələyə yüksəlməsi ilə yadda qaldı. Çolpon-Ata şəhərində keçirilən görüşlər, imzalanan sənədlər və açılan birgə layihələr Bakı ilə Bişkek arasında siyasi etimadın iqtisadi və humanitar əməkdaşlıqla tamamlandığını göstərdi. Səfər çərçivəsində iyulun 31-də Prezident İlham Əliyevlə Qırğızıstan Prezidenti Sadır Japarov arasında təkbətək görüş keçirilib.

Daha sonra dövlət başçılarının iştirakı ilə Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının üçüncü iclası baş tutdub. Görüşlərin yekununda imzalanmış sənədlərin mübadiləsi mərasimi keçirilib.

Səfərin əsas siyasi nəticəsi müttəfiqlik münasibətləri haqqında Müqavilənin imzalanması oldu. Bununla yanaşı energetika, nəqliyyat, kibertəhlükəsizlik, təhsil, maliyyə bazarlarının tənzimlənməsi və qiymətli metalların dövriyyəsini əhatə edən sənədlər qəbul edilib. Tərəflər Azərbaycan - Qırğız İnvestisiya Fondunun kapitalının 200 milyon dollara çatdırılması barədə razılığa gəliblər.

Prezidentlərin iştirakı ilə qarşılıqlı təltifolunma mərasimi də keçirilib. Sadır Japarov Prezident İlham Əliyevə birinci dərəcəli "Manas" ordenini, Azərbaycan Prezidenti isə Qırğızıstanın dövlət başçısına "Heydər Əliyev" ordenini təqdim edib.

Səfər zamanı İssık Kul gölünün sahilində Azərbaycan dövlətinin investisiyası ilə inşa olunan beşulduzlu "Baku Resort & Spa" mehmanxanası açılıb. Azərbaycan və Mərkəzi Asiya ölkələrinin dövlət başçılarının qeyri rəsmi görüşü də burada keçirilib. Bir gün əvvəl isə İlham Əliyev Qırğızıstan, Özbəkistan və Tacikistan prezidentləri ilə birlikdə "Issyk Kul Golf Resort" kompleksində Qolf Klubunun açılışında iştirak edib.

Bu faktlar göstərir ki, Azərbaycanla Qırğızıstan arasında münasibətlər artıq ənənəvi dostluq çərçivəsini aşaraq konkret siyasi və iqtisadi məzmun qazanır. Müttəfiqlik haqqında Müqavilə tərəflərin beynəlxalq platformalarda qarşılıqlı dəstək vermək, təhlükəsizlik məsələlərində koordinasiyanı gücləndirmək kimi niyyətlərini rəsmiləşdirir.

Nəqliyyat məsələlərinin danışıqlarda xüsusi yer tutması da təsadüfi deyildi. Azərbaycan Orta Dəhlizin əsas iştirakçılarından biri kimi Qırğızıstanın Avropa bazarlarına çıxışına kömək edir. Qırğızıstan isə Azərbaycanın Mərkəzi Asiya ilə iqtisadi əlaqələrinin genişlənməsi üçün əhəmiyyətli tərəfdaşdır. Qarabağda "Manas" məktəbinin tikilməsi, Bakıda Çingiz Aytmatovun abidəsinin ucaldılması, qarşılıqlı Mədəniyyət Günlərinin keçirilməsi münasibətlərin humanitar əsaslarını möhkəmləndirir. İssık Kul sahilində Bakının adını daşıyan mehmanxananın açılması da iki ölkə arasındakı yaxınlığın yeni rəmzidir.

# İnsan taleyinin keşiyində

## İnsan alveri ilə mübarizə Azərbaycanda dövlət siyasətidir

İnsan alveri haqqında danışanda statistik rəqəmlərin arxasında dayanan taleləri görmək lazım gəlir. Aldadılaraq yad ölkəyə aparılan qadın, dilənməyə məcbur edilən uşaq, saxta iş vədi ilə istismara sürüklənən gənc bu cinayətin görünən üzüdür. Görünməyən tərəfdə isə zərərçəkənin məlumatsızlığından qazanc götürən cinayətkar şəbəkələr durur.

Buna görə də insan alveri ilə mübarizə təlab edir ki, törədilmiş cinayətin açılmasından daha çox iş görülsün. Burada əsas məsələ təhlükəni vaxtında görmək, insanı cinayətkarın toruna düşməzdən əvvəl qorumaq, qurbanı aşkar etdikdən sonra isə onu yenidən həyata qaytarmaqdır.

*(Ardı 2-ci səhifədə)*

# Rəqəmsal dövrün polisi

## Polis yeni çağırışlara hazırdır

Artıq hər kəs etiraf edir ki, rəqəmsal texnologiyaların sürətli inkişafı cinayətlərin də xarakterini dəyişib, hətta yeni cinayət növləri ortaya çıxarıb. Süni intellekt vasitəsilə hazırlanan saxta görüntü və səslər, şifrələnmiş mesajlaşma platformaları, saxta rəqəmsal kimliklər, kiberdələduzluq sxemləri, kriptovalyutalar üzərindən həyata keçirilən qanunsuz maliyyə əməliyyatları tamamilə yeni reallıq yaradıb.

Əlbəttə, bu, qlobal təhlükədir və istənilən ölkə polisinin adekvat cavab tədbirləri ilə belə təhdidlərə qarşı hazırlıqlı olması zəruridir.

Bəs Azərbaycan polisi bu çağırışlara nə dərəcədə hazırdır? Əvvəlcədən qeyd etmək lazımdır ki, son illər ölkəmizdə hüquq-mühafizə sisteminin rəqəmsallaşdırılması istiqamətində ardıcıl addımlar atılıb.

*(Ardı 2-ci səhifədə)*

# "Yeni Səngəçal" istifadəyə verildi

## Prezident açılışda iştirak edib

Prezident İlham Əliyev "AzərEnerji" ASC-nin 220/110/10 kV-luq "Yeni Səngəçal" yarımstansiyasının açılışında iştirak edib.

Yeni enerji infrastrukturu Cəbrayıl rayonunda tikilən 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasının ölkənin vahid enerjisistemınə inteqrasiyasına xidmət edəcək.

Yarımstansiyanın istifadəyə verilməsi terminalda fəaliyyət göstərən qazla işləyən elektrik stansiyasının dayandırılmasına imkan yaradacaq. Nəticədə hər il 120-150 milyon kubmetr təbii qaza qənaət ediləcək, karbon emissiyaları 260-330 min ton azalacaq. Ümumi sahəsi 6,5 hektar olan yarımstansiya 111 kilometrlik 4 elektrik verilişi xətti ilə enerji sisteminə qoşulub

# İdmanda səmərəli əməkdaşlıq

## Bakıda keçirilən dünya çempionatı yüksək qiymətləndirilib

Prezident İlham Əliyev Dünya Güləş Birliyinin prezidenti Nenad Laloviçi qəbul edib. Görüş zamanı Bakıda 17 yaşadək güləşçilər arasında keçirilən dünya çempionatının təşkili yüksək qiymətləndirilib. Nenad Laloviç yarışın uğurla keçirilməsinə və Dünya Güləş Birliyinin fəaliyyətinə göstərilən dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Prezident İlham Əliyev bu cür yarışların gənc idmançıların inkişafı və gələcək uğurları baxımından əhəmiyyətini vurğulayıb. Görüşdə Azərbaycan güləşçilərinin qazandığı nailiyyətlər, ölkədə bu idman növünün zəngin ənənələri və gələcək əməkdaşlıq imkanları müzakirə olunub.

# Birinci xanımdan uşaqlara diqqət

## Mehriban Əliyeva Çolpon-Ata şəhərində reabilitasiya mərkəzi ilə tanış olub

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva iyulun 31-də Çolpon-Ata şəhərində "Altın Balalık" sağlamlıq və reabilitasiya mərkəzi ilə tanış olub. Səfərdə Qırğız Respublikasının birinci xanımı Aygul Japarova və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva da iştirak ediblər.

Qeyd edək ki, müəssisədə 800 çarpayılıq 136 otaq fəaliyyət göstərir. Yay tətili dövründə Qırğızıstanın bütün bölgələrindən və qonşu ölkələrdən 8 mindən çox uşaq burada təşkil edilən düşərgədə istirahət edir. Sentyabrdan növbəti ilin iyununadək mərkəz reabilitasiyaya ehtiyacı olan uşaqları qəbul edir.


Saxta elan, haram qazanc 3




Süni intellektin yad səsi 3




Göz önündə olan təhlükəsizlik 4



Hollivudsayağı cinayət 4



# Respublika Xəbərləri

### Elektron siqaretlər qadağan edildi

Azərbaycanda elektron siqaretlərin və onların komponentlərinin dövriyyəsinin qadağan olunması ilə əlaqədar qanunvericilikdə uyğunlaşdırıcı dəyişikliklər edilib. Dəyişikliklərə əsasən, bu məhsullar artıq aksizli mallar siyahısından çıxarılıb. Bununla yanaşı, digər qanunlarda da elektron siqaretlərin dövriyyəsinin qadağan olunmasına uyğun düzəlişlər aparılıb.

### Ağdam Sənaye Parkı genişlənir

Ağdam Sənaye Parkına indiyədək 180 milyon manata yaxın investisiya yatırılıb, 1 230 daimi iş yeri yaradılıb. Hazırda parkda 12 müəssisə fəaliyyət göstərir, daha 12-si tikilir, 10-u isə layihələndirmə mərhələsindədir. Bu ilin ilk yarısında burada istehsal olunan məhsulların satışı 976 milyon manat, ixracı isə 42 milyon manat təşkil edib.

### Siyahıyaalma hazırlığı başlayır

2029-cu ildə keçiriləcək əhalinin siyahıyaalınmasına hazırlıq məqsədilə Əhalinin Siyahıyaalınmasına Yardım üzrə Mərkəzi Komissiya yaradılacaq. Qərara əsasən, əhalinin siyahıyaalınması 2029-cu il oktyabrın 1-i vəziyyətinə aparılacaq. Hazırlıq səviyyəsinin qiymətləndirilməsi üçün isə 2028-ci ilin oktyabr ayında Xaçmaz rayonunda sınaq siyahıyaalınması keçiriləcək.

### Nəqliyyat layihələri davam edir

Qarabağda Ağdam–Xankəndi dəmir yolu və Füzuli–Xocavənd avtomobil yolu layihələrinin tikintisi davam edir. Ağdam–Xankəndi dəmir yolu üzrə layihələndirmə işlərinin 90 faizi, tikinti işlərinin isə 44 faizə yaxını tamamlanıb. Füzuli–Xocavənd avtomobil yolunda isə ümumi icra səviyyəsi 33,5 faiz təşkil edir.

### Böyük Britaniya ilə ticarət artıb

Bu ilin ilk yarısında Azərbaycan ilə Böyük Britaniya arasında ticarət dövriyyəsi 3,6 milyard ABŞ dollarını ötərək ötən ilin eyni dövrü ilə müqayisədə 5,4 dəfə artıb. Hesabat dövründə Böyük Britaniyaya ixrac 24 dəfə artaraq 3,5 milyard ABŞ dollarına çatıb, idxal isə 146,7 milyon ABŞ dolları təşkil edib.

### Sərhəd keçidi sürətlənəcək

Azərbaycan–Gürcüstan dəmir yolu xəttində yük qatarlarının sərhəd keçid müddətinin iki dəfə azaldılması ilə bağlı yeni qərarlar qəbul edilib. Yeni yanaşmaya əsasən, vaqonlara təkrar texniki baxış ləğv ediləcək, elektron məlumat mübadiləsi genişləndiriləcək və sərhəd prosedurları sadələşdiriləcək. Dəyişikliklərin yükdaşımaların səmərəliliyini və Orta Dəhlizin tranzit imkanlarını artıracağı gözlənilir.

### Minalardan təmizləmə davam edir

İyul ayı ərzində işğaldan azad edilmiş ərazilərdə 8 012,7 hektar sahə minalardan təmizlənib. Əməliyyatlar zamanı 174 tank əleyhinə mina, 614 piyada əleyhinə mina və 2 106 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Minatəmizləmə işləri bir neçə dövlət qurumu və tərəfdaş təşkilatlar tərəfindən aparılır.

### Sığortaolunanların sayı artıb

Bu ilin ilk yarısında Azərbaycanın fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 71 668 nəfər artıb. Beləliklə, fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların ümumi sayı 5 milyon 399 min 765 nəfərə çatıb.

### Metroda tikinti başlayır

Avqustun 15-dən Bakı metrosunda Qırmızı və Yaşıl xətlərin ayrılması layihəsinin əsas tikinti mərhələsinə başlanılacaq. Təxminən 10–11 ay davam edəcək işlər dövründə "Dərnəgül"istiqamətindən gələn qatarlar yalnız "Nizami" stansiyasına qədər hərəkət edəcək. Layihənin məqsədi metro xətlərinin fəaliyyətini daha səmərəli təşkil etmək və gələcəkdə hərəkət intervalını azaltmaqdır.

### Xüsusi şərtlərlə pensiya

İyul ayında Azərbaycanda xüsusi şərtlərlə əmək pensiyası alanların sayı 151 min 607 nəfər olub. Onların 115 min 615 nəfəri yaşa, 13 min 141 nəfəri əlilliyə, 22 min 851 nəfəri isə ailə başçısını itirməyə görə pensiya alıb.

### Pul bazası artıb

Avqustun 1-nə Azərbaycanda pul bazasının həcmi 23 milyard 942,6 milyon manat olub. Bu göstərici aylıq müqayisədə 1,8 faiz azalsa da, ilin əvvəlinə nisbətən 6,55 faiz, son bir ildə isə 12,7 faiz artıb.

# İnsan taleyinin keşiyində

## İnsan alveri ilə mübarizə Azərbaycanda dövlət siyasətidir

*(Əvvəli 1-ci səhifədə)*

Hər il iyulun 30-nun İnsan Alverinə qarşı Beynəlxalq Mübarizə Günü kimi qeyd olunması da dünya ictimaiyyətinin diqqətini bu ağrılı problemə yönəltmək məqsədi daşıyır. Beynəlxalq hesabatlar göstərir ki, insan alverinin əsas hədəfləri sırasında qadınlar, qızlar və sosial müdafiəsi zəif uşaqlar dayanır. Son illərdə cinayətkarların internetdən və sosial şəbəkələrdən daha geniş istifadə etməsi təhlükənin yeni müstəviyə keçdiyini göstərir. Saxta iş elanları, asan qazanc vədləri, xaricdə təhsil və məşğulluq təklifləri bəzən ağır istismara aparan yolun təməlini qoyur.

### *Prezidentin sərəncamları ilə bu sahədə dövlət siyasətinin əsası qoyuldu*

Azərbaycanda bu cinayətə qarşı mübarizə uzun illərdir ardıcıl dövlət siyasəti əsasında həyata keçirilir. Prezidentin 2004-cü il 6 may tarixli Sərəncamı ilə ilk Milli Fəaliyyət Planının təsdiqlənməsi bu sahədə sistemli dövlət siyasətinin əsasını qoydu. Sonrakı dövrdə qanunvericilik təkmilləşdirildi, aidiyyəti dövlət qurumları arasında əməkdaşlıq gücləndirildi, qurbanların müdafiəsi və sosial reabilitasiyası üçün xüsusi mexanizmlər yaradıldı.

Prezident İlham Əliyevin bu il iyulun 15-də "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2026–2030-cu illər üçün Milli Fəaliyyət Planı"nı təsdiqləməsi isə belə ağır cinayətlə mübarizə tədbirlərinin davamlılığını təmin etmək baxımından olduqca önəmli növbəti addım oldu. Yeni sənəd həssas qrupların müdafiəsinin gücləndirilməsini, cinayət təqibinin effektivliyinin artırılmasını, maarifləndirmə işlərinin genişləndirilməsini və dövlət qurumları ilə qeyri-hökumət təşkilatları arasında əməkdaşlığın inkişafını nəzərdə tutur.

Əslində, Azərbaycan polisinin bu sahədə apardığı mübarizənin nəticələri 2025-ci ilin göstəricilərindən də aydın görünür. Xatırladaq ki, cari ilin 12 mayında Milli Məclisdə İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinator, daxili işlər nazirinin birinci müavini polis general-leytenantı Seyfulla Əzimovun illik məlumatı dinlənilərkən bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticələri açıqlanmışdı.

Məlumatda bildirilirdi ki, hesabat ilində insan alveri və onunla əlaqəli 198 cinayət müəyyən edilib. Onlardan 152-si birbaşa insan alveri, 45-i isə insan alveri məqsədilə sənədlərlə qanunsuz hərəkətlərlə bağlı olub. Aşkarlanmış cinayətlərin 57-si informasiya texnologiyalarından istifadə edilməklə törədilib. İnsan alveri cinayətlərinin 97 faizi açılıb, altı şəxs ətrafında keçirilən əməliyyat tədbirləri nəticəsində iki cinayətkar qrup zərərsizləşdirilib.

Bu məqamda onu qeyd etməliyik ki, insan alverinin törədilməsində informasiya texnologiyalarından istifadə edilməsi faktı internet mühitində aparılan nəzarətin və qabaqlayıcı tədbirlərin əhəmiyyətini bir daha önə çıxarır. Eləcə də aşkarlanmış insan alveri cinayətlərinin 97 faizinin açılması bu istiqamətdə aparılan əməliyyat işinin peşəkarlığından xəbər verir.

İnsan alverinə qarşı mübarizənin ən mühüm göstəricilərindən biri qurbanların sonrakı taleyidir. Hesabat ilində müəyyən edilmiş 46 qurbanın hər birinə birdəfəlik müavinət ödənilib, Daxili İşlər Nazirliyi tərəfindən sığınacağa yerləşdirilib, tibbi müayinələrdən keçirilib, psixoloji, sosial və hüquqi yardımla təmin olunublar.

### *Zərərçəkənlərin cəmiyyətə reinteqrasiyası istiqamətində kompleks tədbirlər görülür*

Qurbanların peşə kurslarına cəlb edilməsi, işlə təmin olunması, müalicəyə və sosial yardıma yönləndirilməsi onların cəmiyyətə yenidən qaytarılması istiqamətində nə qədər kompleks tədbirlər görüldüyünü təsdiqləyir. Bu mərhələdə dövlət qurumları ilə qeyri - hökumət təşkilatlarının birgə fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Çünki uzun müddət təzyiq və istismar altında yaşamış insanın adi həyata qayıtması bəzən cinayətkarın məsuliyyətə cəlb olunmasından daha uzun və çətin proses olur.

Bütün bunlarla yanaşı, onu da qeyd etməliyik ki, insan alveri Azərbaycanda geniş yayılmış cinayət növü hesab edilmir. Bu nəticənin arxasında isə illərlə aparılan əməliyyat tədbirləri, beynəlxalq əməkdaşlıq, qanunvericiliyin təkmilləşdirilməsi və maarifləndirmə işi dayanır. Bununla belə, əldə olunan nəticələr arxayınlığa əsas verməməli və polisin peşəkarlığı qədər cəmiyyət də ayıq-sayıq davranmalıdır. İlk növbədə vətəndaş şübhəli təklifin arxasında gizlənən təhlükəni vaxtında hiss etməli, övladını internetdəki risklərdən qorumalı, insan alveri ehtimalı ilə üzləşdikdə susmamalıdır.

Azərbaycan polisinin insan alverinə qarşı mübarizədə əldə etdiyi nəticələr də göstərir ki, düzgün qurulmuş dövlət siyasəti, güclü hüquq-mühafizə fəaliyyəti və ictimai dəstək insan talelərini cinayətkarların əlindən xilas edə bilər. Bu mübarizənin əsas məqsədi də elə budur.

***R.Mehtiyev***

# Qanunvericilikdə dəyişiklik edilib

## Qumar oyunlarına görə cəzalar sərtləşdirildi

Prezident İlham Əliyev Cinayət Məcəlləsinə, Cinayət Prosessual Məcəlləsinə və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanuna edilən dəyişiklikləri təsdiqləyib. Dəyişikliklər qumar oyunlarına görə cəzaların sərtləşdirilməsini, internetdə yayılması qadağan edilən informasiyaya nəzarətin gücləndirilməsini, eləcə də iqtisadi fəaliyyət sahəsində bəzi cinayətlər üzrə yeni hüquqi mexanizmlərin tətbiqini nəzərdə tutur.

Qanunvericiliyə qumar oyunları ilə bağlı edilən dəyişikliyə əsasən, qumar oyunlarının internet şəbəkəsi, mobil rabitə şəbəkəsi, sosial şəbəkə platformaları, internet və mobil tətbiqlər, digər elektron rabitə vasitələri və texnologiyalara əsaslanan platformalar üzərindən təşkili ağırlaşdırıcı hal hesab ediləcək. Yetkinlik yaşına çatmayanların qumar oyunlarına cəlb edilməsi, cinayətin qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədilməsi və xeyli miqdarda gəlir əldə olunması da daha ağır məsuliyyət yaradan hallar sırasına daxil edilib.

Belə əməllərə görə təqsirli şəxslər cinayət nəticəsində əldə edilmiş gəlirin iki mislinədək məbləğdə cərimə olunmaqla yanaşı, 2 ildən 4 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya eyni müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılacaqlar. Əməllər mütəşəkkil dəstə və ya cinayətkar birlik tərəfindən törədildikdə, yaxud külli miqdarda gəlir əldə edildikdə isə cəza 3 ildən 5 ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya azadlıqdan məhrumetmə olacaq.

# Rəqəmsal dövrün polisi

## Polis yeni çağırışlara hazırdır

*(Əvvəli 1-ci səhifədə)*

Daxili İşlər Nazirliyi və digər dövlət qurumları elektron xidmətlərin genişləndirilməsi, informasiya sistemlərinin inteqrasiyası, videomüşahidə imkanlarının artırılması və kibercinayətkarlıqla mübarizə mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində mühüm işlər görüblər.

Bu sahədə diqqəti cəlb edən yeniliklərdən biri elektron polis xidmətlərinin genişlənməsidir ki, bu gün vətəndaşlar bir sıra arayışları, inzibati cərimələrə dair məlumatları və müxtəlif xidmətləri elektron platformalar vasitəsilə əldə edə bilirlər. Artıq uzun müddətdir ki, Daxili İşlər Nazirliyinin bir çox xidməti Elektron Hökumət portalı və ASAN xidmət üzərindən də təqdim olunur. Eləcə də "E-Polis" xidməti istifadəçilərin ixtiyarındadır. Bu, vətəndaşların müraciətlərinə operativ baxılmasına, vaxt itkisinin azalmasına və xidmətlərin əlçatanlığının artmasına geniş şərait yaradıb.

Mövzuya kibercinayətkarlıq kontekstindən yanaşsaq, qeyd etməliyik ki, müasir dövrdə ən dinamik inkişaf edən cinayət növlərindən biri məhz belə qanun pozuntularıdır. Bank kartlarından vəsaitlərin oğurlanması, fişinq hücumları, saxta investisiya platformaları, sosial şəbəkələr vasitəsilə həyata keçirilən dələduzluq halları artıq gündəlik risklər sırasındadır. Bu istiqamətdə profilaktik tədbirləri davamlı şəkildə gücləndirən Daxili İşlər Nazirliyi vətəndaşları yeni kiberdələduzluq üsulları barədə məlumatlandırmaqla bərabər, əməliyyat və istintaq imkanlarını da təkmilləşdirib.

Məsələ ondadır ki, rəqəmsal mühitdə törədilən cinayətlərin araşdırılması klassik istintaq metodlarından xeyli fərqlənir. Burada hadisə yerini kompüter, mobil telefon, bulud yaddaşı və ya uzaq server əvəz edir. Belə şəraitdə elektron sübutların düzgün toplanması, qorunması və məhkəmədə etibarlı sübut kimi təqdim olunması peşəkar hazırlıq və müasir texniki imkanlar tələb edir.

Təbii ki, belə məqamda Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinin fəaliyyəti xüsusi diqqət çəkir. İdarə informasiya texnologiyalarından istifadə etməklə törədilən cinayətlərin aşkarlanması, elektron sübutların toplanması, kibercinayətkarların müəyyən edilərək məsuliyyətə cəlb olunması istiqamətində




ciddi uğurlar əldə etməkdədir.

Son dövrlərdə həyata keçirilən əməliyyatlar da bunu təsdiqləyir. Elə bu yaxınlarda kiberpolis müxtəlif hüquqi şəxslərin biznes hesablarına qanunsuz müdaxilə edərək külli miqdarda vəsait ələ keçirməkdə şübhəli bilinən şəxsi ifşa etdi. Araşdırmalar göstərdi ki, o, xüsusi proqram təminatından istifadə etməklə elektron identifikasiya məlumatlarını əldə edib, mənimsədiyi vəsaitləri isə kriptovalyuta vasitəsilə leqallaşdırmağa çalışıb. Baş İdarənin ifşa etdiyi digər cinayət faktı süni intellekt texnologiyalarından sui-istifadə ilə bağlı idi. Sosial şəbəkələrdə qadınlara məxsus fotoşəkilləri süni intellekt proqramları vasitəsilə saxtalaşdıran, həmin görüntülərlə zərərçəkənləri şantaj edərək pul tələb edən şəxslər keçirilən əməliyyat tədbirləri nəticəsində saxlanıldı.

Polisin rəqəmsal dövrə hazırlığından söz düşəndə ictimai təhlükəsizliyin təmin edilməsində videomüşahidə sistemlərinin roluna da diqqət çəkməliyik. Şəhərlərdə, magistral yollarda və digər strateji ərazilərdə quraşdırılmış kameralar hüquqpozmaların qarşısının alınmasına, cinayətlərin operativ açılmasına və yol hərəkətinin təhlükəsizliyinin təmin olunmasına ciddi dəstək verir. Analitik proqram təminatı ilə işləyən müasir videomüşahidə sistemləri ölkədə sabitliyin qorunub saxlanılmasına əhəmiyyətli dərəcədə fayda verir.

Şübhəsiz ki, qarşıda görüləcək işlər hələ çoxdur. Ancaq islahatlar bəri başdan onu deməyə əsas verir ki, Azərbaycanın polisi rəqəmsal dövrün tələblərinə uyğun inkişaf yolunu seçib. Bu istiqamətdə atılan hər bir addım isə gələcəyin təhlükəsizlik mühitinin daha etibarlı qurulmasına xidmət edəcəyinə möhkəm zəmin yaradır.

# Xidmətdə keçən ömür

## O, yenə məsləyinə bağlı, andına sadiqdir

**Elə məslək sahibləri var ki, seçdikləri peşə onlardan özünə ömürlük sədaqət tələb edir. Bu sədaqət olmayanda çəkilən zəhmət də, sərf olunan illər də öz mənasını itirir. Məslək dövlətə və xalqa xidmətlə bağlıdırsa, onun məsuliyyəti daha böyük olur və bu yükü yalnız mətin, cəsarətli, əqidəli insanlar daşıya bilir.**

Polis peşəsini seçənlərin həyatı da belədir. Qanun keşikçisinin ömrü günbəgün xalqa və dövlətə həsr olunan ömürdür. Bəlkə də "keçmiş polis olmur" ifadəsi elə buna görə yaranıb. Xidmət illərini başa vurub veteran adını qazanan da Vətən sevgisini, xalqa məhəbbətini və andа sədaqətini ömrünün sonunadək qoruyur.

İyulun 24-də 75 yaşını qeyd edən, Şəkinin dəyərli ağsaqqallarından biri olan təqaüddəki polis mayoru Vaqif Əhmədovun həyat yolu da Vətənə sədaqətli xidmət örnəyidir.

Ömrünün uzun illərini daxili işlər orqanlarında xidmətə həsr edən polis veteranı Vaqif Əhmədov 1951-ci ildə Şəki şəhərində anadan olub. Orta təhsilini və hərbi xidmətini başa vurduqdan sonra kənd təsərrüfatı texnikumunda təhsil alıb. Müxtəlif vəzifələrdə çalışsa da, polis uniforması geyinərək Vətənə xidmət etmək arzusu onu o vaxtkı Daxili İşlər Nazirliyinin N.Rizayev adına Bakı Xüsusi Orta Milis Məktəbinə gətirib.

Sonrakı illərdə Şəki və Zaqatala rayonlarında baş inspektor, bölmə rəisi və digər məsul vəzifələrdə çalışıb. İctimai qaydanın qorunması, vətəndaşların müraciətlərinə həssas yanaşılması, gənc əməkdaşların peşəkarlığının artırılması istiqamətində nümunəvi fəaliyyəti ilə seçilib.

Birinci Qarabağ müharibəsi başlayanda digər həmkarları kimi o da silaha sarılıb, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərə qatılıb. Xidmət illərində daşıdığı məsuliyyəti döyüş meydanında da şərəflə yerinə yetirib.

Qocaman həmkarımız təqaüddə olmasına baxmayaraq bu gün də ictimai işlərdən kənarda qalmır. O, rayon Ağsaqqallar Şurasının, Şəki Şəhər Rayon Polis Şöbəsinin Veteranlar Şurasının sədri, eləcə də Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini kimi fəaliyyətini davam etdirir. Narkomaniya və digər zərərli vərdişlərə qarşı rayonda keçirilən maarifləndirmə tədbirlərində fəal iştirak edən Vaqif Əhmədov gənclərlə görüşür, onları sağlam həyat tərzinə, vətənpərvərliyə və qanunlara hörmət ruhunda yaşamağa çağırır. Gənc polis əməkdaşları ilə zəngin xidmət təcrübəsini bölüşməsi isə onun polis adına və peşəsinə bağlılığının növbəti nişanəsidir.

Azərbaycan polisi sıralarında göstərdiyi xidmətlər, veteran kimi fəallığı və gənc nəslin vətənpərvər ruhda tərbiyəsinə verdiyi töhfələr nəzərə alınaraq Vaqif Əhmədov yubiley günündə Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən "Polis veteranı" medalı ilə təltif olunub. Bu təltif onun uzun illər davam edən yorulmaz fəaliyyətinə, xidmət yoluna və polis adına sədaqətinə verilən layiqli qiymətdir.

Yubilyarı biz də təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür və gələcək fəaliyyətində uğurlar arzulayırıq.

***R.Mehtiyev***

# Maddi zərərlə nəticələnən qəzada necə davranmalı?

## Qanunvericilik sürücülərin üzərinə müəyyən öhdəliklər qoyur

Sürücülərin hər gün üzləşdiyi problemlərdən biri də süni nəqliyyat sıxlığıdır. Paytaxt yollarında bu sıxlığın yaranma səbəblərindən biri isə maddi zərərlə nəticələnən yol-nəqliyyat hadisələrindən sonra avtomobillərin uzun müddət yolun hərəkət hissəsində saxlanılmasıdır. Halbuki qüvvədə olan qanunvericilik müəyyən hallarda sürücülərə nəqliyyat vasitəsini yolun kənarına çəkməyə və hadisə yerini tərk etməyə imkan verir.

Bəzi sürücülər avtomobili yolun kənarına çəkdikləri təqdirdə sığorta ödənişləri ilə bağlı problemlə qarşılaşacaqlarını düşünürlər. Ancaq qanunvericilik müəyyən şərtlər daxilində buna icazə verir. "Yol hərəkəti haqqında" Qanun və İnzibati Xətalar Məcəlləsi bu məsələ ilə bağlı sürücülər üçün konkret tələblər müəyyənləşdirir. Belə ki, yol-nəqliyyat hadisəsində təqsirkarın müəyyən edilməsi ilə bağlı tərəflər arasında mübahisə olmadıqda və hadisə nəticəsində şəxslərin sağlamlığına zərər dəymədikdə, sürücü hadisə yerini tərk etdiyinə görə inzibati məsuliyyətə cəlb olunmur. Digər nəqliyyat vasitələrinin hərəkəti mümkün olmadığında isə yolun hərəkət hissəsi boşaldılmalı, hadisə barədə polisə məlumat verilməlidir. Beləliklə, maddi zərərlə nəticələnən qəzalarda avtomobilin yolun hərəkət hissəsində uzun müddət saxlanılması hər zaman zəruri deyil. Qanunvericiliyin müəyyən etdiyi şərtlərə əməl olunmaqla nəqliyyat vasitəsi yoldan kənarlaşdırıla bilər. Bu, həm hərəkətin bərpasına, həm də əlavə qəza riskinin qarşısının alınmasına şərait yaradır.

# Süni intellektin yad səsi

## Kiberdələduzlar doğmalarınızı necə aldadır?

***Texnologiyanın inkişafı həyatımızı asanlaşdıran bir çox imkanlar yaradıb. Lakin bu imkanlar cinayətkarların əlinə keçdikdə tamam başqa məqsədlər üçün istifadə olunur. Son illərdə diqqət çəkən belə üsullardan biri də insan səsinin süni intellekt vasitəsilə təqlid edilməsidir. Artıq dələduzun təkcə tanımadığımız nömrədən zəng etməsi kifayət deyil, o, həm də özünü tanıdığımız insan kimi təqdim etməklə yanaşı, həmin şəxsin səsini də təqlid edə bilir.***




Səsin klonlaşdırılması zamanı süni intellekt insanın səs nümunələrini analiz edir. Səsin tonu, danışıq sürəti, vurğusu, intonasiyası və digər xüsusiyyətləri öyrənilir. Daha sonra bu məlumatlardan istifadə etməklə həmin şəxsə bənzər yeni danışıq yaradıla bilir. Bu isə dələduzların qarşısında yeni imkanlar açır. Sosial şəbəkələrdə yayılan videolar, səsli paylaşımlar və digər açıq mənbələrdə yerləşdirilən səs nümunələri də cinayətkarların diqqətini çəkə bilər. Onlar həmin səsdən istifadə edərək şəxsin yaxınlarına zəng edir, özlərini onun kimi təqdim edir və müxtəlif bəhanələrlə pul tələb edirlər. Ən təhlükəli məqam isə insanın tanış səsə şübhəsiz inanmasıdır. Telefon danışığı zamanı qarşı tərəfin üzünü görmürük. Səs də doğma və inandırıcı gəldikdə şübhələnmək daha çətin olur.

Məsələn, zəng edən şəxs özünü həmin şəxsin övladı və ya yaxını kimi təqdim edərək qəza törətdiyini, xəstəxanada olduğunu və ya təcili pula ehtiyacı olduğunu deyir. Bu halda qarşı tərəf narahat olur və vəziyyəti araşdırmadan pul göndərməyə tələsir. Bu cür "təcili yardım" bəhanələri dələduzluğun geniş yayılmış üsullarındandır və süni intellekt həmin ssenarini daha inandırıcı göstərir.

### *Saxta səsi necə tanımaq olar?*

Bəzən süni şəkildə yaradılan səsdə danışığın həddindən artıq hamar olması, yəni emosiyaların qeyri-təbii səslənməsi, sözlər arasında qəribə fasilələr və ya intonasiyada uyğunsuzluqlar hiss edilə bilər. Amma saxta səsi yalnız dinləməklə müəyyən etmək hər zaman mümkün olmur. Ona görə ən etibarlı yol zəngin həqiqi olub-olmadığını başqa üsulla yoxlamaqdır.

Əgər zəng edən şəxs özünü yaxınınız kimi təqdim edir və pul istəyirsə, danışığı dayandırın və həmin şəxslə əvvəlcədən bildiyiniz telefon nömrəsi vasitəsilə əlaqə saxlayın. Qarşı tərəfin "bu nömrəyə zəng etmə", "telefonum işləmir" kimi bəhanələrinə aldanmayın.

Ən əsası isə tələsməməkdir. "İndi göndər", "heç kimə demə", "vaxtım yoxdur" kimi ifadələr insanı düşünmədən qərar verməyə təhrik etmək üçün səsləndirilir. Belə məqamlarda tələsmədən və diqqətli davranmaq mümkün təhlükənin qarşısını alar.

Dələduzluğun bu yeni formasına qarşı mübarizədə vətəndaşların məlumatlı olması mühüm əhəmiyyət daşıyır. Polis əməkdaşları bunun üçün müxtəlif dələduzluq üsulları barədə vətəndaşları mütəmadi olaraq məlumatlandırır, şəxsi və bank məlumatlarının qorunmasının vacibliyini diqqətə çatdırır və şübhəli hallarla qarşılaşdıqda necə davranmalı olduqlarını izah edirlər.

Həmçinin vətəndaşlara bank kartlarının məlumatlarını, şifrələri, SMS vasitəsilə göndərilən təsdiq kodlarını və digər məxfi məlumatları heç kimlə paylaşmamaq tövsiyə olunur. Mütəmadi olaraq polisə daxil olan dələduzluqla bağlı müraciətlər araşdırılır, cinayətlərin törədilməsində şübhəli bilinən şəxslərin müəyyənləşdirilməsi və məsuliyyətə cəlb olunması istiqamətində tədbirlər görülür. Eyni zamanda, meydana çıxan yeni dələduzluq üsulları barədə vətəndaşların maarifləndirilməsi məqsədilə mediada və sosial şəbəkələrdə məlumatlandırıcı materiallar yayımlanır, müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilir.

Beləliklə, qeyd edə bilərik ki, texnologiya inkişaf etdikcə dələduzluq üsulları da dəyişir. Buna görə də təhlükədən qorunmağın ən effektiv yollarından biri diqqətli olmaq, tələsməmək və qarşı tərəfin kimliyini yoxlamadan heç bir maliyyə əməliyyatı aparmamaqdır.

***F.Məmmədova***

# Saxta elan, haram qazanc

## Polis vətəndaşları aldadanları saxlayıb

Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi müxtəlif alış-veriş platformaları, həmçinin bank və bank olmayan kredit təşkilatlarına məxsus internet səhifələrini təqlid edən saxta fişinq saytları yaradaraq vətəndaşların kart məlumatlarını ələ keçirən daha iki şəxsi saxlayıb.

Kiberpolisin keçirdiyi əməliyyat-axtarış və texniki tədbirlərlə qeyd olunan cinayət əməllərini törətməkdə şübhəli bilinən M.İbadov və H.Kazımov məsuliyyətə cəlb ediliblər.

Araşdırmalarla müəyyən edilib ki, H.Kazımov və M.İbadov "Telegram" platformasında kompüter, noutbuk və mobil telefonların guya böyük endirimlərlə satıldığı, eləcə də sərfəli şərtlərlə kreditlərin təqdim edildiyi barədə saxta elanlar yerləşdiriblər.

Onlar hazırladıqları saxta elanların daha çox istifadəçiyə çatdırılması məqsədilə ödənişli internet reklamlarından istifadə ediblər.

Elanlara daxil olan vətəndaşlar endirimli xidmətlərdən yararlanacaqlarını düşünərək saxta səhifələrdə bank kartı məlumatlarını daxil etdikdən sonra bu informasiyalar dərhal şübhəli şəxslərin əlinə keçib. Bununla da kiberdələduzlar həmin kart məlumatlarından istifadə etməklə zərərçəkmişlərin hesablarında olan pul vəsaitlərini oğurlayıblar. Onlar ifşa olunmamaq üçün vəsaitləri müxtəlif mərc oyunları platformalarına və ya faktiki olaraq nəzarətlərində olan kartlara köçürüblər. H.Kazımov və M.İbadovun bu üsulla yüzlərlə vətəndaşa maddi ziyan vurduqları müəyyən edilib.

Faktla bağlı Baş İdarədə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

# Nə əkərsən, onu biçərsən

## Polis çətənə becərən şəxsi ifşa edib

Lənkəran Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə narkotik tərkibli bitkilərin kultivasiyası ilə məşğul olmaqda şübhəli bilinən əvvəllər məhkum olunmuş 47 yaşlı C.Kərimov saxlanılıb. Ondan çaykənarı ərazidə aqrotexniki qaydada qulluq edərək yetişdirdiyi 63 ədəd çətənə kolu və marixuana aşkarlanıb. Faktla bağlı cinayət işi başlanılıb. Məhkəmənin qərarı ilə C.Kərimov barəsində həbs qətimkan tədbiri seçilib.

İsmayıllı rayonunda isə 10 tondan artıq çətənə kolu aşkar edilərək məhv edilib.

İsmayıllı Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri "Xaş-xaş-2026" şərti adlı kompleks tədbirlər nəticəsində Xanagah kəndi ərazisində yabanı halda bitən narkotik tərkibli bitkilər aşkar edilib. Ümumi çəkisi 10 ton 135 kiloqram olan 5126 ədəd çətənə kolu məhv edilib.

# Qaladığı odda özü "yandı"

## Əkin sahəsini yandıran şəxs saxlanılıb

Ağdam rayonu ərazisində son günlər baş vermiş yanğın hadisələrinin səbəblərinin müəyyən edilməsi istiqamətində polis əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib.

Regional qrupumuzun məlumatına görə, araşdırmalar çərçivəsində əraziyə qaldırılmış pilotsuz uçuş aparatı və video-müşahidə kameralarının görüntüləri təhlil olunub. Toplanmış materiallar əsasında Ağdam-Ağcabədi inzibati ərazilərinin kəsişməsində yerləşən əkin sahələrinin qəsdən yandırılması faktı müəyyən edilib. İlkin araşdırmalar zamanı hadisənin 77-PT-225 dövlət qeydiyyat nişanlı "Niva" markalı avtomobili idarə edən 29 yaşlı S.Hüseynli tərəfindən törədilməsinə dair əsaslı şübhələr müəyyən olunduğundan həmin şəxs saxlanılıb.

Faktla bağlı cinayət işi başlanılıb. Hazırda S.Hüseynlinin təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilməsi, hadisənin bütün hallarının tam və hərtərəfli araşdırılması, habelə əməlә hüquqi qiymət verilməsi istiqamətində zəruri prosessual tədbirlər davam etdirilir.

# Avtomobil qaçıranların aqibəti...

## Polis avtomobilləri sahiblərinə qaytarıb

Sumqayıt şəhəri ərazisində zərərçəkənə məxsus "MG" markalı avtomobil qaçırılıb. Polis əməkdaşları tərəfindən keçirilən tədbirlə qeyd olunan əməli törətməkdə şübhəli bilinən N.Koroğluyev müəyyən olunaraq saxlanılıb. Araşdırmalarla həmin şəxsin müştərinin avtoyuma məntəqəsinə təhvil verdiyi avtomobili özbaşına götürərək hadisə yerindən uzaqlaşdığı məlum olub.

Şəhər ərazisində keçirilən digər tədbir nəticəsində isə zərərçəkənin yaşadığı binanın həyətində saxladığı "VAZ-2106" markalı avtomobili qaçırmaqda şübhəli bilinən A.Zeynalov da saxlanılıb.

Hər iki nəqliyyat vasitəsi sahibinə geri qaytarılıb. Araşdırmalar davam etdirilir.

# Göz önündə olan təhlükəsizlik

## Müşahidə kameraları cinayətlərin qarşısını nə dərəcədə alır?

**Şəhər küçələrində, yaşayış binalarında, dövlət müəssisələrində, ticarət mərkəzlərində, hətta kiçik mağazalarda belə müşahidə kameraları artıq gündəlik həyatın ayrılmaz hissəsinə çevrilib. Bir vaxtlar yalnız iri müəssisələrdə istifadə olunan bu texnologiya bu gün ictimai təhlükəsizliyin təmin edilməsində ən mühüm vasitələrdən biri sayılır. Hadisələrin qeydə alınması, hüquq-mühafizə orqanlarının işinin asanlaşması və vətəndaşlarda təhlükəsizlik hissinin formalaşması müşahidə sistemlərinin əhəmiyyətini daha da artırıb. Bununla belə, cəmiyyətdə bəzən belə bir təsəvvür yaranır ki, kamera olan yerdə heç nə diqqətdən yayınmır. Əslində isə ən müasir texnologiyanın belə imkanları müəyyən texniki və fiziki məhdudiyyətlərlə üzləşir.**



### ►Rəqəmsal şahid

Müşahidə kameralarının əsas üstünlüyü hadisələri obyektiv şəkildə qeydə almasıdır. Cinayətlərin araşdırılması zamanı videogörüntülər çox vaxt mühüm sübut mənbəyinə çevrilir. Hadisənin baş vermə vaxtı, iştirakçıların hərəkət istiqaməti, istifadə olunan nəqliyyat vasitəsi və digər vacib detallar məhz bu görüntülər vasitəsilə müəyyən edilir.

Araşdırmalar göstərir ki, müşahidə altında olduğunu bilən şəxslər qanunazidd hərəkətlərə yol verməkdən daha çox çəkinirlər. Bu baxımdan kameralar həm nəzarət, həm də profilaktik vasitə kimi mühüm rol oynayır.

Müasir müşahidə sistemləri artıq sadəcə görüntü yazmaqla kifayətlənmir. Yüksək təsvir keyfiyyəti, gecəgörmə funksiyası, hərəkətin avtomatik aşkarlanması və uzaqdan onlayn izləmə kimi imkanlar onların effektivliyini əhəmiyyətli dərəcədə artırır.

### ►Kameraların da "kor nöqtələri" var

Bütün üstünlüklərinə baxmayaraq, müşahidə kameralarının texniki məhdudiyyətləri də mövcuddur. Kameranın görüntü keyfiyyəti, quraşdırıldığı yer, baxış bucağı və işıqlandırma şəraiti əldə olunan nəticəyə birbaşa təsir göstərir.

Bəzən hadisə kameranın əhatə dairəsindən kənarda baş verir və ya şəxsin üzü müxtəlif səbəblərdən aydın görünmür. Güclü günəş işığı, duman, yağış, qar, zəif işıqlandırma, eləcə də obyektivin çirklənməsi görüntünün keyfiyyətini aşağı salaraq mühüm detalların seçilməsini çətinləşdirə bilər.

Digər vacib amil isə kameraların düzgün yerləşdirilməsidir. Obyektin xüsusiyyətləri nəzərə alınmadan quraşdırılan sistemlərdə "kor nöqtələr" yaranır və məhz həmin sahələrdə baş verən hadisələr kameraların diqqətindən kənarda qala bilir.

### ►Videogörüntü mühüm sübutdur, amma yeganə deyil

İctimaiyyətdə bəzən kameraya düşən görüntünün mübahisəsiz sübut olduğu düşünülür. Halbuki istintaq praktikasında videogörüntülər digər sübutlarla birlikdə qiymətləndirilir. Məsələn, görüntüdə şəxsin müəyyən əraziyə daxil olduğu görünə bilər. Lakin onun həmin məkanda hansı məqsədlə olduğu yalnız şahid ifadələri, ekspert rəyləri və digər istintaq materialları əsasında müəyyənləşdirilir. Buna görə də videogörüntülər araşdırmanın mühüm elementi olsa da, yekun hüquqi qiymətləndirmədə əsas vasitə hesab edilmir.

Son illərdə təhlükəsizlik sistemlərinə süni intellekt texnologiyalarının inteqrasiyası müşahidə kameralarının imkanlarını daha da genişləndirib. Bu sistemlər insan sıxlığını analiz edə, şübhəli davranışları müəyyənləşdirə, uzun müddət hərəkətsiz qalan əşyaları aşkar edə və riskli vəziyyətlər barədə operatorları avtomatik xəbərdar edə bilir. Lakin süni intellekt də səhvsiz deyil. Oxşar geyimlər, əlverişsiz hava şəraiti, zəif işıqlandırma və aşağı keyfiyyətli görüntülər analiz nəticələrinin dəqiqliyinə təsir göstərə bilər. Buna görə də süni intellektin verdiyi nəticələr mütləq operator və mütəxəssislər tərəfindən yoxlanılır.

### ►Texnologiya insanı əvəz etmir

Müşahidə kameraları təhlükəsizlik sisteminin vacib elementləridir, lakin onların effektivliyi hüquq-mühafizə orqanlarının operativ fəaliyyəti, peşəkar araşdırılmaları və vətəndaşların məsuliyyətli davranışı ilə tamamlanır. Kamera hadisəni qeydə ala bilər, amma hadisənin səbəblərini araşdırmaq, hüquqi qiymət vermək və obyektiv nəticəyə gəlmək yenə də insanın peşəkarlığından asılıdır. Texnologiya nə qədər inkişaf etsə də, ictimai təhlükəsizliyin əsas təminatçısı hüquq-mühafizə orqanları əməkdaşlarının çevik fəaliyyəti, düzgün təşkil olunmuş nəzarət sistemi və cəmiyyətin qanunlara hörmətidir.

***A.Tahirova***

# Hollivudsayağı cinayət

## Dayanacaqdakı avtomobilin sirri necə açıldı?

***ABŞ-ın Texas ştatının San Antonio şəhərində yaşayan 19 yaşlı Savannah Soto ana olmağa hazırlaşırdı. Hamiləliyinin son günlərini yaşayan gənc qadın 2023-cü il dekabrın 23-də xəstəxanaya getməli idi. Lakin həmin gün nə Savannahdan, nə də onun 22 yaşlı həyat yoldaşı Matthev Querradan xəbər almaq mümkün olmur.***

Ailə polisə müraciət edir, cütlüyün şəkilləri sosial şəbəkələrdə yayılır... Üç gün sonra gələn məlumat axtarışın istiqamətini dəyişir.

San Antoniodakı yaşayış komplekslərindən birinin dayanacağında naməlum avtomobilin uzun müddət dayanmasından şübhələnən sakinlər polisə məlumat vermişdilər. Polis əməkdaşları əraziyə çatanda maşının Matthev Querraya məxsus olduğunu müəyyənləşdirdilər. Ancaq avtomobildə Savannah və Matthevin meyitləri vardı. Hər ikisi güllələnmişdi.

Görünüşə görə, Matthev Querra öncə həyat yoldaşını öldürmüşdü, sonra özünü. Ya da kimsə bunun belə görünməsini istəmişdi. Ancaq iki detal polisi bu ehtimalı dərhal istisna etməsinə bəs edir. Birincisi, Querranın əlində və ya yaxınlığında silah yox idi, ikincisi detektivlər avtomobilin arxa təkərində qan izləri tapmışdılar. Deyəsən kimsə qurbanlardan birini



sürüyüb avtomobilin təkərinə söykəyib, sonra avtomobilin içinə salmışdı. Üstəlik, avtomobilin içində güllə izləri də başqa mətləblərdən xəbər verirdi. Beləliklə, hadisə yerinə baxış keçirən detektiv avtomobilin tapıldığı dayanacağın qətlin baş verdiyi yer olmadığı qənaətinə gəlir.

İndi növbəti sual yaranmışdı: avtomobili dayanacağa kim gətirmişdi?

Polis cavabı ərazidəki müşahidə kameralarında axtarır. Saatlarla davam edən baxış zamanı hər avtomobilin hərəkəti, dayanma müddəti və əraziyə daxil olan şəxslər araşdırılır. Nəhayət, görüntülərdən birində Matthevin avtomobili görünür, ancaq maşın dayanacağa tək gəlməmişdi. Onun arxasınca iri pikap hərəkət edirdi.

İki avtomobil yanaşı saxlayır, sonra pikapdan bir kişi düşərək Matthevin maşınına yaxınlaşır, avtomobilin qapı və avtomobilin bəzi hissələrini parça ilə silirdi. Yəni sanki izləri silməyə çalışırdı...

Polis pikapı Ramon Preciadonun, Matthevin avtomobilini isə onun oğlu Kristofer Preciadonun idarə etdiyini müəyyənləşdirir. Ancaq bu, hələ ittiham üçün kifayət etmirdi. Kameradakı görüntü onların avtomobilin daşınmasında iştirak etdiyini göstərə bilərdi, amma qətlin kim tərəfindən və harada törədildiyini sübut etmirdi.

Polis növbəti izi qurbanların telefonlarında axtarır. Məlum olur ki, onlar yoxa çıxmazdan əvvəl Kristofer Preciado ilə əlaqə saxlayıb. İstintaqın ehtimalına görə, görüş narkotik maddə alqı satqısı ilə bağlı olmuşdu. Artıq üç ayrı iz eyni nöqtədə birləşirdi: Matthevin yazışmaları, telefon məlumatları və müşahidə kamerasında görünən pikap.

Preciado ailəsinin yaşadığı evdə axtarış aparan polis cinayətdə istifadə edilən tapançanı da aşkarlayır. İstintaqın versiyasına əsasən, Savannah və Matthev həmin gecə Kristoferlə görüşmək üçün evin yaxınlığına gəlmişdilər. Görüş zamanı mübahisə yaranmış, silahdan atəş açılmışdır. Qətldən sonra Kristofer atasına zəng edərək kömək istəmişdi. Ata və oğul maşınları dayanacağa gətirmiş, Matthevin avtomobilini orada saxlamışdılar. Kamerada qapını parça ilə silən kişi də məhz cinayətin izlərini aradan qaldırmağa çalışan ata idi.

Məhkəmədə Kristofer əvvəlcə Matthevin ona silah çəkdiyini, atəşin qarşıdurma zamanı açıldığını və ana olmağa hazırlaşan Savannahın da təsadüfən vurulduğunu iddia edirdi.

Ancaq tibbi ekspertizanın nəticələri və hadisə yerindən toplanmış sübutlar onun danışdığı mənzərəyə uyğun gəlmirdi. Yekunda məhkəmə belə qənaətə gəlir ki, o, öncə Matthevi öldürüb, sonra həyat yoldaşının başına atəş açıb. Daha sonra isə narkotiki və pulu götürərək aradan çıxıb. Məhkəmə Kristoferi heç bir halda azadlığa buraxılmamaq şərti ilə ömürlük azadlıqdan məhrum edir. Maraqlıdır ki, onun atasının məhkəməsi isə hələ də bitməyib.

# ABŞ-da axtarılan şəxs Yamaykada tutulub

## O, milyonlarla dollar vəsaiti ələ keçirməkdə ittiham olunur




ABŞ-da COVID-19 pandemiyası dövründə ayrılan yardım vəsaitlərinin mənimsənilməsi ilə bağlı axtarışda olan 41 yaşlı Eleyn Ancen Esko Yamaykada saxlanılaraq ABŞ-a qaytarılıb. Esko pandemiya dövründə dövlət tərəfindən ayrılan 32 milyon dollardan çox yardım vəsaitinin saxta yollarla əldə edilməsində ittiham olunur. O, dələduzluq və çirkli pulların yuyulması ilə bağlı bir sıra cinayətlərdə təqsirləndirilir. İstintaq materiallarına əsasən, Esko 2025-ci ildə federal məhkəməyə gəlmədikdən sonra onun barəsində qiyabi həbs qərarı çıxarılıb. Bundan sonra o, ölkədən qaçaraq Yamaykaya gedib və saxta şəxsiyyət vəsiqəsindən istifadə edərək gizlənə bilib. ABŞ və Yamayka hüquq-mühafizə orqanlarının birgə keçirdiyi əməliyyat nəticəsində Esko saxlanılıb və ölkəsinə ekstradisiya edilib.

Qeyd edək ki, bu ABŞ-da maliyyə dələduzluğuna qarşı mübarizə çərçivəsində son bir ay ərzində saxlanılan dördüncü şəxsdir.

# Fransada muzeylərdən tarixi əsərlər oğurlanır

## Bir ay ərzində üç muzey qarət edilib




Fransada muzeylər bir birinin ardınca qarət olunub. Artıq bu hadisələr dünya mediasının da diqqətini çəkib və muzeylərin qorunmasına cavabdeh olan aidiyyəti qurumların fəaliyyəti ilə bağlı ciddi suallar yaranıb.

Məsələn bu ölkədə iyul ayı ərzində ölkənin üç fərqli departamentində yerləşən muzeylər oğruların hədəfinə çevrilib. Hadisələr nəticəsində ümumi dəyəri milyonlarla avro olan qiymətli eksponatlar oğurlanıb.

İlk hadisə iyulun 1-də Tarn departamentindəki Montan Arxeologiya Mərkəzində baş verib. Muzeyə daxil olan oğrular 15 dəqiqədən az müddət ərzində eramızdan əvvəl 50-ci ilə aid təxminən 40 antik sikkəni götürərək hadisə yerindən uzaqlaşıblar. Dəymiş ziyanın 120 min avrodan artıq olduğu bildirilir.

İyulun 5-də isə Aşağı Reyn departamentinin Vingen-sür-Moder kommunasında yerləşən məşhur Lalique Muzeyi qarət edilib. Oğrular




altı vitrini sındıraraq 27 qiymətli zinət əşyasını aparıblar. Bu hadisə nəticəsində dəymiş ziyan 4,5 milyon avronu ötüb.

İyulun 24-də isə Kot-d'Or departamentinin Şatillon-sür-Sen kommunasında yerləşən muzeydən Fransanın milli sərvəti hesab edilən qiymətli eksponat oğurlanıb. Söhbət eramızdan əvvəl V əsrə aid "Viks xanımı"nın qızıl boyunbağısından gedir. Əvəzsiz hesab olunan bu artefakt yalnız maddi dəyərinə görə deyil, həm də tarixi və arxeoloji əhəmiyyətinə görə böyük önəm daşıyır. Məlumata görə, artıq şübhəlilərdən biri polis əməkdaşları tərəfindən saxlanılıb.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
ANAR QAFAROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik